AZƏRBAYCAN RESPUBLİKASININ
SƏHİYYƏ NAZİRLİYİ

AZ1022 Bakı, Nəsimi rayonu, M.Mirqasımov küç., 1A
www.health.gov.az
Tel.: (+994 12) 598 50 94 Faks: (+994 12) 493 06 95
Elektron ünvan: office@health.gov.az

01.10.2014 № 101

№-zə ______________

# ƏMR

Bakı şəhəri

**"Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 04.07.2013-cü il tarixli 71 nömrəli əmrinə dəyişiklik edilməsi barədə"**

"Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın icrası ilə bağlı uşaqlara tibbi müayinələrin aparılması işinin təkmilləşdirilməsi məqsədilə

## ƏMR EDİRƏM:

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan tibb idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, uşaqların icbari dispanserizasiyası zamanı müayinələrin aparılması bu əmrin əlavəsində göstərilən siyahıya uyğun həyata keçirilsin.(əlavə olunur)
2. Səhiyyə Nazirliyinin "Uşaqların icbari dispanserizasiyası zamanı müayinələrin və baxış keçirəcək ixtisaslı mütəxəssislərin siyahısının təsdiq edilməsi barədə" 04.07.2013-cü il tarixli 71 nömrəli əmrinin əlavəsi qüvvədən düşmüş hesab edilsin.
3. Əmrin icrasına nəzarət Tibbi yardımın təşkili şöbəsinin müdiri G.Poladova həvalə edilsin.

**Nazir müavini** **Nigar Əliyeva**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 01.10.2014-cü il tarixli 101 nömrəli əmri ilə təsdiq edilmişdir

**Uşaqların icbari dispanserizasiyası zamanı müayinələrin və baxış keçirəcək ixtisaslı mütəxəssislərin**

**SİYAHISI**

1. Dispanserizasiya məqsədilə həyata keçirilən profilaktik baxış zamanı aparılan müayinələr:

-antropometrik müayinələr;
-arterial təzyiqin ölçülməsi;
-görmə qabiliyyətinin təyini;
-eşitmə qabiliyyətinin təyini;
-qanın ümumi analizi;
-helmintlərin təyini;
-plantoqrafiya.

2. Dispanserizasiya məqsədilə həyata keçirilən profilaktik baxış keçirəcək ixtisaslı mütəxəssislər:

-həkim-pediatr (və ya ailə həkimi);
-həkim-nevropatoloq;
-həkim-oftalmoloq;
-həkim-cərrah;
-həkim-otorinolarinqoloq;
-həkim-stomatoloq;
-həkim-endokrinoloq;
-həkim-mama-ginekoloq;
-həkim-dermatovenероloq;
-loqoped

Qeyd: Profilaktik müayinələr uşaqların yaş qrupuna uyğun aparılır. Hər hansı patologiyaya şübhə yaranarsa tibbi göstərişə əsasən əlavə müayinələr və ixtisaslı mütəxəssislərin baxışı aparılır.